## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*

UOT 373.2.

***Sədaqət Ağarəhim qızı Əliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ MİLLİ MƏDƏNİYYƏT MÜHİTİNİN YARADILMASI

***Садагет Агарагим гызы Алиева***
*доктор философии по педагогике*
*Азербайджанский Государственный Педагогический Университет*

# СОЗДАНИЕ НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЙ СРЕДЫ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Sadaqat Agharahim Aliyeva***
*doctor of philosophy in pedagogy*
*Azerbaijan State Pedagogical University*

# CREATING A NATIONAL-CULTURAL ENVIRONMENT IN PRE-SCHOOL EDUCATIONAL INSTITUTIONS

**Xülasə:** Məqalədə məktəbəqədər tərbiyə müəssisələrində milli mədəniyyət mühitinin yaradılmasının əhəmiyyətindən bəhs edilir. Ənənəvi mədəniyyət mühiti - uşağın tərbiyəsi və inkişafı üçün ideal mühitdir. Belə mühitin yaradılması yolu ilə xalqın həyatına xas olan bir çox xüsusiyyətlər əldə edilə bilər. Ona görə də uşaq bağçasının bütün qruplarında milli guşə olmalıdır və uşaqlar burada doğma xalqının mədəniyyətini əyani görməlidirlər. Bu guşələrin əsas vəzifəsi məktəbəqədər yaşlı uşaqların etnoqrafik mədəniyyətini formalaşdırmaq, milli ənənələri öyrətmək, şifahi xalq yaradıcılığı, maddi mədəniyyət əşyaları ilə onları tanış etmək və vətənpərvərlik hissini tərbiyə etməkdir.

***Açar sözlər:*** *milli mədəniyyət, folklor, uşaq bağçası, mühit, adət-ənənələr.*

**Резюме**: В статье рассматривается важность создания национально-культурной среды в дошкольных образовательных учреждениях. Традиционная культурная среда - идеальная среда для воспитания и развития ребенка. Создавая такую среду, она может достичь многих особенностей жизни людей. Поэтому все группы в детском саду должны иметь национальный уголок, и дети должны видеть здесь культуру своего родного народа. Основной целью этих уголков является формирование этнографической культуры детей дошкольного возраста, обучение национальным традициям, ознакомление их с устной культурой, ознакомление их с материальной культурой и воспитание патриотизма.

***Ключевые слова:*** *национальная культура, фольклор, детский сад, среда, традиции.*

**Summary:** The article discusses the importance of creating a national-cultural environment in pre-school educational institutions. Traditional cultural environment is an ideal environment for the upbringing and development of a child. By creating such an environment, it can achieve many features of people's lives. Therefore, all groups in kindergarten should have a national corner, and children should see here the culture of their native people. The main purpose of these corners is to form the ethnographic culture of children of preschool age, to teach national traditions, to acquaint them with oral culture, to acquaint them with material culture and to foster patriotism.

***Key words:*** *national culture, folklore, kindergarten, environment, traditions.*

Ənənəvi mədəniyyət mühiti – uşağın tərbiyəsi və inkişafı üçün ideal mühitdir. Məlumdur ki, ətraf aləm uşağın mənəvi keyfiyyətlərinin formalaşmasına böyük təsir edir, onda gözəllik hissi yaradır, maraq hissini inkişaf etdirir. Ona görə də, uşağın ilk andan ruhunu oxşayan və ona gözəllik hissi aşılayan ətrafdakı əşyalar milli olmalıdır. Xalq mədəniyyətinin sosial-pedaqoji funksiyalarından başqa əhəmiyyəti həm də mədəni-yaradıcı mühit yaratmaqla uşağın mədəniyyət dünyasına - xalq mədəniyyəti dünyasına cəlb olunmasıdır. Bu erkən yaşdan uşağa xalqı haqqında ilkin məlumat əldə etməyə imkan verir. Belə mühitin yaradılması yolu ilə xalqın həyatına xas olan bir çox xüsusiyyətləri əldə edə bilər. Xalqın gündəlik həyatı ilə bağlı məişət avadanlıqlarından, oyunlarda, əyləncələrdə, asudə vaxtlarda, məşğələlərdə demonstrativ materiallardan, eksponatlardan tərbiyəçinin rəhbərliyi ilə istifadə edilməsi uşaqların milli mədəniyyətə cəlb edilməsinə geniş imkan yaradır.

Uşaqların xalq ustalarının düzəltdiyi məmulatlarla tanış edilməsi ilə uşaq təkcə xalq mədəniyyətinə cəlb edilmir, həm də uşağın daxili dünyası zənginləşir, öz xalqına sevgi, xalqı ilə fəxr etmək tərbiyə olunur, uşaqda tarixinə və mədəniyyətinə maraq güclənir. Keçmişi bilmək və anlamaqla, indini və gələcəyi anlamaq olar. Uşaqların müxtəlif xalq dekorativ sənəti ilə tanış edilməsi uşağa əşyanın xüsusiyyətlərini və xalqın etnik həyatında nə rol oynadığını görməyə və anlamağa imkan verir. Sərgi uşaqlara ustaların təkrar olunmaz yaradıcılığını görməyə kömək edir.

Uşaq bağçasında olan muzey guşələr uşaqların xalq mədəniyyətinə cəlb edilməsində böyük potensial imkanlara malikdir. Ona görə də uşaq bağçasının bütün qruplarında milli guşə olmalıdır və uşaqlar burada doğma xalqının mədəniyyətini əyani görməlidirlər. Uşaqlar bu guşələrdə qədim nənələrin əl işlərini - toxuma, naxış və qədim əşyaları görə bilirlər. Bu guşələrin əsas vəzifəsi məktəbəqədər yaşlı uşaqların etnoqrafik mədəniyyətini formalaşdırmaq, milli ənənələri öyrətmək, şifahi xalq yaradıcılığı, maddi mədəniyyət əşyaları ilə onları tanış etmək və vətənpərvərlik hissini tərbiyə etməkdir. Məktəbəqədər yaşlı uşaqlarda obrazlı-görüntülü fikri inkişaf etdirmək çox vacibdir. Onun üçün uşaqlar gördüklərini həm də fəaliyyətdə nümayiş etdirilərkən görməlidir. Məsələn, milli geyimi milli bayramlarda, laylaları gəlinciyi yatırdarkən və s. Eksponatları müşahidə edərkən anlaşılmayan və unudulan sözləri uşaqlar üçün anlaşılan dildə demək və başa salmaq lazımdır. Belə olduqda uşaqlar anlayır və yaddaşlarında həmişəlik qalır.

Müasir həyatda folklor əsərlərində göstərilən xalq məişətinin heç bir əşyası yoxdur. Biz uşaqlara adları çəkilən, lakin uşaqlar üçün əlçatmaz olan məişət əşyalarını göstərməklə və onun lazımlılığını deməklə uşağa keçmişin bir elementi haqqında məlumat vermiş oluruq. Milli mədəniyyət nümunələri ilə tanışlıq formal deyil, öyrədici və inkişafetdirici xarakter daşımalıdır. Xalq mədəniyyətindən bəhs edən guşə uşağa gördüyü əşyaların simvolik rolunu anlamağa kömək edir. Bu "kiçik muzey" passiv xarakter daşımamalı, uşaqlar üçün keçmiş mədəniyyətin təsiri ilə ünsiyyət, dialoq vasitəsi olmalıdır. Uşaqlarda müasir mədəni mühitdə davranış bacarığına, bir başa eksponatlardan informasiya alma vasitəsilə bilik almağa istiqamətlənməlidir.

Deməli, uşaq bağçasında uşaqların adət-ənənələrlə tanışlığı prosesində inkişafetdirici mühitin təşkil olunması - guşələrin təşkili, söhbət, inteqrasiya olunmuş məşğələlər, valideynlərlə birgə fəaliyyətlə xalq ədəbiyyatına nüfuz etmə məşğələlərin məzmununun, keyfiyyətinin kifayət qədər yüksəlməsini reallaşdırılır. Uşaqlar şüurlu və emosional şəkildə guşədəki eksponatları qavrayır, folklor janrlarının məzmununu anlayır, öz yaradıcılıqlarında və müstəqil fəaliyyətlərində əks etdirir, tərbiyəçi, valideyn və bütün ətrafdakılarla münasibətində nümayiş etdirir.

Müasir texnologiya məktəbəqədər yaşlı uşaqların xalq mədəniyyətinə cəlb olunması prosesinin maraqlı olmasına imkan verir. Əldə edilməsi mümkün olmayan əşyaların, adət-ənənələrin slaydlarla təqdimatı mümkündür. Bu vasitə ilə uşaqlar xalq adətləri, məişət ənənələri ilə tanış olurlar. Məktəbəqədər müəssisələrdə muzey mədəniyyətini və muzey pedaqogikasını yaratmaq üçün ilk növbədə xalq mədəniyyətinə aid mini muzey, qrup otağında xalq mədəniyyəti nümunələrini toplayıb qədim əşyalardan ibarət guşə, guşədə isə yaradıcı fəaliyyət üçün şərait təşkil etmək lazımdır.

Uşaq bağçalarında qrup otaqlarının bir guşəsində uşaqların diqqətini cəlb edən, nağıllarda, tapmacalarda adları çəkilən, onlarda maraq hissi yaradan əşyaları yerləşdirmək lazımdır. Uşaqlar bu əşyalara toxunmaqla onu yaxından görür, on-

dan istifadə qaydalarını öyrənməyə çalışır. Uşaqlar xalqın məişət əşyalarından süjetli-rollu oyunlarda istifadə edərək zövq alır. Bundan başqa didaktik xalq oyunları oynayır, illüstrasiyalara baxır, musiqi alətlərini görür, müxtəlif xalq tətbiqi-incəsənət növləri ilə tanış olur.

Sonrakı mərhələdə isə inkişafetdirici mühiti zənginləşdirmək: qrupda xalq məişətini özündə əks etdirən guşəni mütəmadi olaraq qədim əşyalarla (məişət əşyaları, sənətkarlıq nümunələri) yeniləmək, uşaqların bədii yaradıcılıq guşəsində onların müstəqil fəaliyyəti üçün müxtəlif materiallar - qayçı, müxtəlif ölçüdə rəngli kağızlar, kartonlar, parçalar, fırça, plastilin və s. qoyulmalıdır. Bu vasitə ilə uşaqlar həm muzey eksponatları ilə, həm də ümumiyyətlə ehtiyatla davranmağı xarakterlərinə həkk edirlər. Bundan başqa qrupda xalq mədəniyyəti guşəsində xalq musiqi alətləri (kiçik həcmli formaları), xalq tətbiqi-incəsənət nümunələri, xalq oyuncaqları, uşaq kitabları-nağıllar, tapmacalar, boyama kitabları, kiçik formada hazırlanmış qədim geyimlər və s. Nümayiş etdirilə bilər.

Yalnız qədim əşyalara toxunaraq uşaqlar öz tarixi keçmişini, keçmişdəki insanların həyat və yaşayışını hiss edəcək və öz şüuruna uzaq keçmiş həyatı gətirəcəklər.

Məktəbəqədər yaş dövrü uşaqda sosiallaşma və mənəvi keyfiyyətlərin təşəkkül tapdığı dövrdür. Uşaqların əxlaq tərbiyəsinin inkişafına əvəzsiz köməyi onların sosiumla qarşılıqlı əlaqəsi verir. Sosial bilik və bacarıqlarının səviyyəsini artırmaq üçün uşaqların xalq mədəniyyəti ilə bağlı biliklərini formalaşdırmaq, doğma diyarın sosial, mədəni və təbiətinin müxtəlifliyi ilə tanış etmək, xalqımıza xas olan ailə münasibətləri haqqında fikir yaratmaq, xalqın tarixinə, şifahi xalq yaradıcılığına marağını inkişaf etdirmək, müxtəlif xalq sənətləri, sənət tarixi ilə tanış etmək lazımdır.

**Elmi yeniliyi:** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məktəbəqədər tərbiyə müəssisələrində milli mədəniyyət mühitinin yaradılmasının uşaqların tərbiyəsində əhəmiyyəti göstərilmişdir.

**Praktik əhəmiyyəti:** Məktəbəqədər tərbiyə müəssisələrində milli mədəniyyət mühitinin yaradılması uşaqların tərbiyəsinə mühüm təsir göstərəcəkdir.

**Aktuallığı:** Məktəbəqədər tərbiyə müəssisələrində milli mədəniyyət mühitinin yaradılması uşaqların milli mədəniyyətlə tanış edilməsində vacibdir.

**Ədəbiyyat:**

1. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1992.
2. Əliyeva S. Xalq tərbiyəsinin amilləri və vasitələri. Bakı, 2016.
3. Əliyeva S. Məktəbəqədər yaşlı uşaqların milli mədəniyyətlə tanışlığının metodikası. Bakı, 2019.

**E-mail:** aliyevasedaqet.29@mail.ru

**Rəyçi:** *dos.* **Ş. Baxışova**

**Redaksiyaya daxil olub: 30.09.2019.**